

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# SƏS

## (Xalq artisti Mikayıl Mirzəni xatırlarkən)

**Onun söz qalası qaynaqdı yerə,**
**Onun söz qayası güclüdü gücdən.**
**Özündən qaçmağı bacaran deyil,**
**Özünə dönməyi öz əlindədir.**
**Deyirəm: yüz ildi, yüz əlli ildi**
**Dünyanın damına çıxıb Mikayıl,**
**Yalanla doğrunun səddini çəkir,**
**Haqq ilə nahaqqın səddini çəkir.**
**Yığıb söz daşları, söz qayaları,**
**Vurub bəbəyinə biganələrin,**
**Atır qulağına eşitməzlərin.**
**Mikayıl Şeir oxuyur.**

Gələn il onun 70 yaşı olacaq. Amma on bir ildir ki, Mikayıl Mirzə aramızda yoxdu.

Qırx il sənətlə yaşadı, hələ tələbə ikən istedadını hiss edib radioya, televiziyaya çağırırdılar. Əsl sənətçilərin yaşı barədə yox, həmişə sənət sevincləri, uğurları haqda fikirləşirsən. Mikayıl Mirzənin sənət uğurları o qədər çox idi ki, bunlar 59 yaşın çərçivəsinə sığmırdı. Maksim Qorkinin bir fikrini xatırlayıram: "İstedad özünə, öz qüvvəsinə inam deməkdir". Mikayılı sevdirən, məşhurlaşdıran, sənətdə öncüllüyünü təmin edən başlıca faktor məhz bu inam idi.

O, bir müddət Milli Məclisin deputatı da oldu. Tanınmış bir aktyorun xalqın seçdiyi adamlar sırasına qoşulmağı heç də təsadüfi deyildi. O, müstəqillik uğrunda mübarizədə tribunalarda, mötəbər məclislərdə öz sözünü deyirdi. Bircə mübarizə üsulu vardı - SƏS YOLU. Mikayıl Mirzə deyəndə SƏS yada düşür-gur, qəzəbli, sərt, üsyan dolu. Mikayıl Mirzə bütün türk şairlərinin ən inqilabçılarından biri olan Xəlil Rza Ulutürkün üsyankar səsinin, millət şairi Məmməd Arazın batmış səsinin poetik zirvəsiydi.

Poeziya heç vaxt çığırtını, bağırtını, qışqırığı sevmir, çünki əsl şeir ilahi kəlamlarıdır, bağırtıya dözməz. Onu gərək astadan, dua kimi deyəsən, pıçıldayasan. Lakin tarixin elə anları olur ki, söz ruhanilik və zəriflik missiyasını üzərindən atır, sərkərdəlik donunu geyir. Bəzən sözün tuşladığı güllələr topun, tüfəngin qəzəbindən daha sərt olur. Neçə illər Mikayıl Mirzə bu sözün snayperçisi oldu. O zaman Mikayıl Mirzə gur səsiylə, Məmməd Araz şerilə bütün Azərbaycana haray çəkirdi:

**Ayağa dur, Azərbaycan!**
**Səninləyəm.**
**Səndən qeyri biz hər şeyi**
**bölə billik,**
**Səndən qeyri biz hamımız**
**ölə billik.**
**Ayağa dur, Azərbaycan!**
**Bunu bizə zaman deyir,**
**Məzarından baş qaldıran**
**Baban deyir.**

Şeyx Məhəmməd Xiyabani deyirdi ki, bir millətin şərafəti üçün lazım olan şərt istiqlaliyyətdir. Ancaq bu istiqlaliyyəti qazandıqdan sonra onu qorumaq daha da qurbanlar tələb edir. Bax, bu məqamda söz qılıncdan da, topdan da, tüfəngdən də kəsərli olmalıdır. Mikayıl Mirzə də o illərdə belə bir sözün sahibiydi.

Sənətdə özünəməxsusluq başlıca meyardır. Nə çoxdur epiqonçular, onun-bunun sözünü yamsılayan tutuquşular, hətta başqasının səsiylə oxuyanlar. Mikayıl Mirzə sənətdə ilk addımlarından başlayaraq hətta qımıltısıyla seçilə bildi, sonra gur səsi, sonra Mikayıl nərəsi. Ancaq bu gur səs heç vaxt bağırtıya, qulaqbatıran hayqırtıya dönmədi. Səhv etmirəmsə, onun müəllimi Müxlis Cənizadə olub. Müxlis müəllim Azərbaycan aktyorları içərisində seçilən qiraət ustalarından biri idi.

Mikayıl Mirzə Akademik teatrda bir-birindən gözəl rollar oynayıb. Onların hamısını birbəbir sadalamaq fikrində deyiləm.



Günahsız Abdulla - Elxan, Şair Kirmani. Mikayıl Mirzə Günahsız Abdullanı o qədər təbii oynayırdı ki, onun oyununa valeh olmamaq mümkün deyildi. Bu rolda onun üsyankar təbiəti ilə Abdullanın qəzəbli nidaları bir-birinə qovuşurdu. "Od gəlini" tamaşasında Elxan-Babək rolu da onun möhtəşəm ifası kimi anılır. Fikirləşirsən ki, bəlkə də Mikayıl Mirzə bu rola illər boyu hazırlaşmalı olub. Cavidin "Topal Teymur" pyesinin televiziya tamaşasında Şair Kirmani isə Mikayıl Mirzənin bir aktyor kimi tamam fərqli bir cəhətini üzə çıxardı. Əvvəlki üsyankar səciyyəli rollarından fərqli olaraq Şair Kirmani ağıl, zəka kultunu ifadə edirdi. "Məhəbbət! Məhəbbət!... Əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir. Məhəbbətlə çırpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir. Əgər dünyanın şanlı çarpışmaları, qanlı vuruşmaları nəticədə bir məhəbbət, fövqəlbəşər bir məhəbbət doğurmayacaqsa bütün həyata, bütün kainata nifrətlər olsun" - Mikayıl Mirzə pyesin sonunda Şair Kirmaninin bu monoloqunu təkcə tamaşa salonuna deyil, bütün dünyaya xitab edirdi.

Mikayıl Mirzə Akademik teatrda, televiziya tamaşalarında nə qədər gözəl rollar ifa etdi, amma mən deyərdim ki, özünün tam yaradıcılıq potensialını bütünlüklə ifadə etmədi.

Dünya teatrında azman Ələsgər Ələkbərovun Otellosu indi də anılır. Neçə illərdir ki, rejissorlar Azərbaycan səhnəsi üçün Otello rolunu oynaya biləcək aktyor axtarırlar. Amma çox təəssüf ki, görkəmiylə də, gözlərindəki parıltıyla da qara dərili qısqanc ərəbi xatırladan Mikayıl Mirzəni görə bilmədilər. O, Otello roluna layiq idi.

1967-ci ildən Azərbaycan Dövlət Akademik Dram Teatrının əksər tamaşalarına baxmışam. Məmmədrza Şeyxzamanovun, Ağasadıq Gəraybəylinin, Leyla Bədirbəylinin, İsmayıl Osmanlının, İsmayıl Dağıstanlının, Hökumə Qurbanovanın, Əliağa Ağayevin, Möhsün Sənaninin, Məhluqə Sadıqovanın, Məlik Dadaşovun, Ətayə xanımın, Həsənağa Turabovun, Səməndər Rzayevin, Hamlet Qurbanovun, Əlabbas Qədirovun, Vəfa Fətullayevanın, Hamlet Xanızadənin oynadığı tamaşalara baxmışam. Və Mikayıl Mirzənin. İndi bu aktyorların heç biri həyatda yoxdu, amma teatr tarixində onların hərəsindən izlər qalıb. Mikayıl Mirzə də bu sənətkarlar sırasında seçilirdi. Təbiəti şairliyə yaxındı deyə (o, müasir şairlərin əksəriyyəti ilə yaradıcılıq əlaqəsində olmuşdu, onların şeirlərini səsləndirirdi), teatrda ya sənətkar rollarını oynayırdı, ya da mübariz insan tiplərini. Həyatı ilə səhnə taleyi arasında oxşarlıq vardı. Mənim fikrimcə, əsl sənətkarın iki ömrü olmur - bu sənətkar-şəxsiyyət sənətdə də, həyatda da bir ömür yaşayır. Həyatda da, sənətdə də, Millir Məclisdə də bir Mikayıl Mirzə vardı.

Heyif, tez getdi. O çılğınlıqla, o üsyankar səslə çox yaşaya bilməzdi.

**Ruhu şad olsun!**